BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№1 Sosial-siyasi elmlər seriyası 2007*

# İBTİDAİ İSTİNTAQDA MÜDAFİƏÇİNİN PROSESSUAL FƏALİYYƏTİNİN BƏZİ PROBLEMLƏRİ

**S.V.SADIQOVA**
*Bakı Dövlət Universiteti*

*Məqalə, ibtidai istintaq mərhələsində müdafiəçinin prosessual fəaliyyətinin bəzi problemlərinə həsr olunmuşdur. Cinayət - prosessual qanunvericiliyə uyğun olaraq müstəntiq hüquq məsləhətxanasının rəhbərindən və ya vəkillər kollegiyasının rəyasət heyətindən müdafiəçinin təqdim olunmasını tələb etmək hüququna malikdir. İbtidai istintaqda müdafiənin effektivliyi müdafiəçinin müdafiə etdiyi şəxslə, o cümlədən müdafiəçinin müstəntiqlə qarşılıqlı əlaqəsindən əhəmiyyətli dərəcədə asılıdır. Müdafiəçi cinayət prosesində müstəqil fiqurdur, onun fəaliyyəti birtərəfli xarakter daşıyır – o yalnız müdafiə etməlidir, təqsirləndirilən şəxsin mövqeyindən fərqli mövqe tutmamalıdır. Məqalədə ibtidai istintaqda müdafiəçinin iştirakının bəzi mübahisəli məsələləri açıqlanmışdır.*

Müdafiə probleminin, onun ittihamla, dövlət və hüquqla qarşılıqlı əlaqəsinin tədqiq edilməsi, o cümlədən cinayət prosesinin təqsirləndirilən şəxsin müdafiə vasitələrinin fəaliyyət sferası kimi öyrənilməsi böyük elmi və praktiki əhəmiyyət kəsb edir. Bu problemlərin dərk edilməsinin əhəmiyyəti onunla müəyyən edilir ki, müdafiə, onun mahiyyəti və üsulları mühüm bəşəri dəyərə malikdir. Dövlət və cəmiyyət tərəfindən ona olan münasibət cəmiyyətin özünun xarakteri, onun demokratikliyinin, humanizmliyinin, qanunçuluğun səviyyəsini göstərir.

Bu problemlərin öyrənilməsinin elmi və praktiki əhəmiyyəti müdafiə kateqoriyalarının əlaqəsini, ittihamı, hüquqları, xüsusilə də cinayət-prosessual hüquqları düzgün başa düşməyə imkan verir. Bu isə onun müdafiəyə xas olan xassələrinin, o cümlədən qanunverici və hüquqmühafizə orqanlarının müvafiq fəaliyyətinin aydınlaşdırılması üçün çox vacibdir. O, təqsirləndirilən şəxsin şəxsiyyətini cinayət prosessual mühafizənin obyekti və məsuliyyətin subyekti kimi üzə çıxarır. Axı insan hüququn təkcə obyekti deyil, həm də subyektidir. Bu da öz növbəsində şəxsin cinayət məsuliyyətinə əsaslı olaraq cəlb edilməsi, ona ədalətli cəzanın təyin edilməsi, cinayət prosesinin özünün və müvafiq vəzifəli şəxslərin təqsirləndirilən şəxsin hüquqlarının mühafizəsindəki rolu kimi məsələlərin daha dəqiq və dərindən aydınlaşdırılmasına imkan verir.

Müdafiənin hüquqda, xüsusən də cinayət prosessual qanunlarda ifadə olunmuş siyasi və hüquqi məqsədləri həmişə aydın olmur. İnsanlar qanunvericiliyə hörmət edə, müdafiə xassələrinə malik olan ədalətli hüquqi və əxlaqi ideyaları qəbul edə bilərlər. Şəxsin qanunun tələblərinə əməl etməsinin inandırıcı motivi kimi təkcə ona tətbiq edilə bilən məcburiyyət qarşısında qorxu yox, həm də bu qanunda müdafiənin olmasına, onun daxili səmərəliliyinə, ədalətliliyinə inam olmalıdır. Ədalət müha-

kiməsi təkcə ittihamı deyil, şəxsiyyətin müdafiəsini də bir məqsəd kimi öz qarşısına qoymalıdır. Yalnız belə halda o, insanlarda qanun və hüquq qaydasına hörmət tərbiyə edə bilər. İstənilən cinayət işinə baxarkən ədalət mühakiməsi elə olmalıdır ki, hər bir vətəndaş dövlətin maraqlarına cavab verə biləcək şərtlərlə təmin olunsun, yəni o, təkcə vəzifə daşımasın, həm də səlahiyyətli və müdafiə edilən olsun.

Cinayət mühakimə icraatı öz qarşısına təqsirləndirilən şəxsin müdafiəsinin təmin edilməsi vəzifəsini qoymalıdır: müdafiə xarakterli fikirləri, baxışları, göstərişləri aktiv şəkildə tətbiq etmək, şəxsin öz müdafiəsini ideoloji, hüquqi və əxlaqi mövqedən qiymətləndirməsi müəyyən səviyyədə və müəyyən vaxt ərzində ittihamın neytrallaşdırılmasına, cinayət mühakimə icraatında iradə və marağın «yaşamasına» istiqamətlənməlidir.

Şəxsin öz hüquqlarından, o cümlədən müdafiə hüququndan istifadəsi üçün şərait yaradan dövlət hakimiyyəti çox müxtəlif üsulları tətbiq edir. Onlar arasında belə bir göstəriş də var ki, şəxs qanun çərçivəsində, müdafiə olunmaqla öz üzərinə düşən öhdəlikləri yerinə yetirməli, törətdiyi əmələ görə cavab verməlidir.

Vəkil prosesin aktiv iştirakçısıdır və ittihamın ibtidai istintaqda və məhkəmədə müdafiəsi onun fəaliyyətindən asılıdır. İndi vəkilin bu rolunu artıq heç kim inkar etmir. Lakin heç də hamı müdafiəçinin fəaliyyətinin məzmununa laqeyd deyildir.

Hələ İ.Y.Foynitski düzgün olaraq qeyd edirdi ki, «İbtidai istintaqda müdafiənin olması cinayət işinin tədqiqi üzrə dövlət hakimiyyətinin üzərinə düşən ağırlığın yüngülləşdirilməsi deməkdir. Bir müdafiə imkanının olması müstəntiqin fəaliyyətinə böyük inam yaradır və ayrı-ayrı hallarda məhkəməyə artıq iş göndərilməsinin qarşısını alır.

Müdafiəçi şübhəli və ya təqsirləndirilən şəxsin, qanuni nümayəndələrin, o cümlədən təqsirləndirilən və ya şübhəli şəxsin tapşırığı və razılığı ilə digər şəxslər tərəfindən işdə iştirak etməyə cəlb olunur. AR CPM-nin 92-ci maddəsinə görə şübhəli və ya təqsirləndirilən şəxsin xahişi ilə müdafiəçinin işdə iştirakı təhqiqatı aparan şəxs, müstəntiq, prokuror və ya məhkəmə tərəfindən təmin edilir.

Təcrübədə belə bir sual yaranır ki, müstəntiq qanunla müdafiəçiyə malik olması məcburi olan şəxslər kateqoriyasına aid olan şübhəli və ya təqsirləndirilən şəxs tərəfindən bu barədə vəsatət verildiyi hər bir haldamı müdafiəçinin işdə iştirakını təmin etməlidir? Məhkəmə təcrübəsi müdafiə hüququnun pozulması faktını o halda tanıyır ki, istənilən şübhəli və ya təqsirləndirilən şəxsin ona müdafiəçi təqdim edilməsi barədə xahişi yerinə yetirilməsin. Belə məhkəmə təcrübəsindən çıxış edərək müstəntiqlərin böyük əksəriyyəti şübhəli və ya təqsirləndirilən şəxs bu barədə xahiş etdiyi halda onun müdafiəçi ilə təmin edilməsi üçün tədbirlər görürlər (bəzən istintaqda böyük çətinliklərin və ləngimələrin olmasına baxmayaraq). Müstəntiqlərin belə fəaliyyəti düzgündür.

Şəxsin tutulduğu və ya həbs edildiyi andan, qalan hallarda isə, ittihamın elan edildiyi andan ibtidai istintaqa müdafiəçinin buraxılması ilə əlaqədar olaraq müdafiəçinin dəvət olunmasına tələb artmışdır. Bununla belə bir sıra rayonlarda, xüsusilə də uzaq rayonlarda ya vəkil yoxdur, ya da çox azdır. Bununla əlaqədar olaraq bəzən elə hallar müşahidə olunur ki, ibtidai istintaqa müdafiəçi qismində müxtəlif hüquq kooperativlərinin üzvləri və ya belə bir fəaliyyət üçün kifayət qədər hazırlıqlı olmayan və müdafiəçi üçün zəruri olan əxlaqi keyfiyyətlərə ma-

liк olmayan adi xüsusi şəxslər dəvət olunur. Belə hallar yolverilməzdir.

Artıq məlum olduğu кimi «Vəкillər və vəкilliк fəaliyyəti haqqında» qanuna uyğun olaraq vəкillər məcburi olaraq ali hüquqi təhsilə maliк olmalı, müvafiq staj кeçməli, məhкumluğa maliк olmamalı, əxlaqi baxımdan təmiz olmalıdırlar.

Cinayət prosessual qanun (AR CPM-nin 92.1. maddəsi) cinayət prosesinə müdafiəçi кimi Azərbaycan Respubliкası ərazisində vəкilliк fəaliyyəti ilə məşğul olmaq hüququna maliк olan vəкillərin buraxılmasını nəzərdə tutur.

Yuxarıda şərh edilənləri əsas götürərəк belə bir nəticəyə gəlməк olar кi, ibtidai istintaqda və ya təhqiqatda yalnız vəкillər кollegiyasının üzvü iştiraк edə bilər.

Təhqiqat və ya ibtidai istintaqda müdafiəçinin işdə iştiraк etməyə buraxılması məsələsini həll edən təhqiqatçı və ya müstəntiq AR CPM-nin 114-cü maddəsini rəhbər tutmalıdırlar. Bu maddəyə görə, vəкil əgər həmin iş üzrə hazırda və ya əvvəllər qanuni mənafeyini müdafiə etdiyi təqsirləndirilən və ya şübhəli şəxsin, həmçinin təmsil etdiyi mülкi iddiaçı, yaxud mülкi cavabdehin qanuni mənafeyi ilə ziddiyyət təşкil edən şəxsə hüquqi yardım göstərirsə, və ya o işdə əvvəllər haкim, proкuror, müstəntiq, təhqiqat aparan şəxs, eкspert, mütəxəssis, tərcüməçi, şahid və ya hal şahidi кimi iştiraк etmişdirsə, o cümlədən əgər işin istintaqı və ya işə baxılması zamanı vəкilin qohumluq münasibətində olduğu vəzifəli şəxs iştiraк edərsə vəкil işdə zərərçəкənin, mülкi iddiaçı və ya mülкi cavabdehin müdafiəçisi və ya nümayəndəsi qismində iştiraк edə bilməz. Belə halda vəкilə CPM ilə nəzərdə tutulmuş qaydada etiraz edilməlidir.

Müdafiəçi müdafiə etdiyi şəxsə ittihamın mahiyyətini və onun hüquqlarını müstəntiqdən sonra təкrar izah edə bilərmi?

Vəкillərdən çox vaxt belə fiкir eşidilir кi, ittihamın elan olunması zamanı onlar yalnız bir növ hal şahidi кimi çıxış edirlər, belə кi, onların istənilən aкtivliyinin qarşısı müstəntiq tərəfindən alınır. Bununla belə müdafiəçi ittihamın qoyuluşundaкı və ya tutma protoкolundaкı aydın olmayan müddəaların izah edilməsini müstəntiqdən xahiş edə, ittihamın yenidən elan olunması barədə vəsatət verə bilər. Əgər müdafiəçi hesab edirsə кi, müstəntiq izahatı кifayət qədər aydın verməyib, bu sənədləri şərh edə və öz müdafiə etdiyi şəxsə onun hüquqlarını izah edə bilər.[1]

Müstəntiqin müdafiəçi tərəfindən verilən sualları rədd etməк hüququ da şərh tələb edir. Hər şeydən əvvəl, bu yönəldici və etiк cəhətdən qeyri-dəqiq olan suallara aiddir.

Müstəntiq müdafiəçinin onu maraqlandıran sualları vermə vaxtını da müəyyən etməlidir. Hər halda buna müstəntiq dindirməni və ya onun ittihamın hər hansı bir epizoduna aid olan hissəsini başa vurduqdan sonra icazə verilir. Digər halda müstəntiq tərəfindən istintaq hərəкətinin aparılmasının seçilmiş taкtiкası pozula bilərdi. Müstəntiq və müdafiəçi arasında olan qarşılıqlı münasibətlər onların hüquq və vəzifələrinin dəqiq hüquqi tənzimindən çox asılıdır. Bununla belə, müdafiəçinin ibtidai istintaqda iştiraкı zamanı yaranan bir çox suallar bəzən müxtəlif cür şərh olunur və bu da müstəntiq və müdafiəçi arasında qarşılıqlı münasibətlərdə münaqişəli situasiyanın yaranmasına aparıb çıxara bilər.[2]

İş materiallarından istənilən məlumatı istənilən həcmdə çıxarış etməк hüququ qanunda təhqiqat və istintaq başa çatdıqdan sonra işin bütün materialları ilə tanış olmaq hüququnun ardınca sadalanmışdır.

Bununla əlaqədar olaraq müdafiəçi və ittiham olunan şəxsin təhqiqat və ibtidai istintaq gedişində tanış olduqları iş materiallarından çıxarış etmək hüququ barədə sual yaranır.

Müdafiəçinin ibtidai istintaqın ən ilkin mərhələsindən işə buraxılması müdafiəçiyə münasibətdə müstəntiqin yeni vəzifələrini doğurmuşdur. İbtidai istintaqda müstəntiq və müdafiəçinin qarşılıqlı münasibətləri əsasən cinayət-prosessual xarakter daşıyır. Lakin münasibət bununla bitmir, belə ki, əxlaqi və təşkilati xarakterli qarşılıqlı münasibətlər də yaranır.

Müdafiəçini təmin etmək vəzifəsi formal tərəflə bitmir. Müstəntiq müdafiəçiyə işləmək üçün real şərait yaratmalıdır, xüsusilə də əvvəlcədən müdafiəçini nə vaxt və harda işə başlaya bilməsi barədə xəbərdar etməli, əgər həmin müddət bu və ya digər səbəbdən vəkil üçün əlverişli deyildirsə, onunla başqa vaxt barədə razılığa gəlməli, müdafiəçiyə işləmək üçün yer verməli, müdafiəçi və ittiham olunan şəxsin təklikdə görüşə bilməsi üçün yer ayırmalıdır.

«Subyektiv hüquqa müdafiə hüququnun həyata keçirilməsi və hüququ həyata keçirmək imkanının təmin edilməsi eyni mənanı ifadə etmir. Müdafiə hüququnu şübhəli bilinən şəxs , təqsirləndirilən şəxs və müdafiəçi həyata keçirir, məhz onların fəaliyyəti müdafiə funksiyasını yaradır. Prosesin digər iştirakçıları tərəfindən öz subyektiv hüquqlarının həyata keçirilməsi kimi müdafiənin həyata keçirilmə şərtləri eynidir və müvafiq mərhələlərdə iş üzrə icraata görə məsuliyyət daşıyan orqanlar tərəfindən təmin olunmalıdır» .[3]

Əgər müdafiəçi konkret istintaq hərəkətində iştirak etmək arzusunu bildirirsə, lakin başqa prosesdə məşğul olduğuna görə təyin edilmiş vaxtda gəlmək imkanına malik deyildirsə, o, həmin istintaq hərəkətinin ağlabatan müddətə başqa vaxta keçirilməsi barədə vəsatət qaldıra bilər.

Bununla belə, müstəntiq ilkin istintaqın müddətinin başa çatmasına az vaxt qaldığı hallarda və ya bəzən ümumiyyətlə müddət bitdiyi halda müdafiəçini istintaq hərəkətində iştirak etmək üçün təcili qaydada çağırmamalıdır. Sübutların məhv olması təhlükəsinə görə istintaq hərəkətinin dərhal həyata keçirilməli olması halları istisnadır.

Zəruri olan hallarda müdafiəçinin xəbərdar edilməsi və onun konkret istintaq hərəkətində iştirak etmək haqqında vəsatəti yazılı formada verilə bilər. Bu halda müstəntiq nəzərə almalıdır ki, müdafiəçiyə əsassız olaraq istintaq hərəkətində iştirak etmək imkanının verilməməsi təqsirləndirilən şəxsin müdafiə hüququnun pozulması deməkdir.

Müstəntiq təşkilati məsələlərdə onu da unutmamalıdır ki, qanunla ona şübhəli şəxsi və ya təqsirləndirilən şəxsi hüququ yardıma görə ödənilməli olan haqdan tam və ya qismən azad etmək hüququ verilmişdir (AR Konstitusiyasının 61-ci maddəsi). Bununla əlaqədar olaraq müstəntiq hüquq məsləhətxanasına müdafiəçinin işi ilə bağlı çəkdiyi xərcləri dövlətin hesabına ödəmək hüququ verən qərar qəbul edir.

Müdafiə qanunla nəzərdə tutulan xüsusi hallarda, yəni iş üzrə icraatda müdafiəçinin iştirakının məcburi olduğu hallarda prosesi həyata keçirən orqanın təyinatı əsasında yarana bilər. Təyinatı üzrə müdafiə qanunla müəyyən edilən müdafiəni xatırladır, belə ki, hər ikisi cinayət prosessual qanunvericiliklə məcburi və təqsirləndirilən şəxsin iradəsindən asılı olmayan müdafiə kimi tənzimlənir. Onların fərqi ondan ibarətdir ki, qanun üzrə müdafiə qanuni nümayəndəyə, təyinatı üzrə müdafiə isə

müdafiəçiyə şamil olunur.

AR CPM-nin 92.12 maddəsinə görə şübhəli və ya təqsirləndirilən şəxsin müdafiəçidən imtina etməsi protokolda göstərilir. Təhqiqatçı, müstəntiq, prokuror və ya məhkəmə müdafiəçidən imtina edilməsini o halda qəbul edir ki, şübhəli və ya təqsirləndirilən şəxs öz təşəbbüsü ilə bu barədə könüllü olaraq müdaifiəçi qismində təyin olunacaq müdafiəçi və ya vəkilin iştirakı ilə ərizə vermiş olsun. Şübhəli və ya təqsirləndirilən şəxsin hüquqi yardımın haqqını ödəyə bilməyəcəyi səbəbinə görə müdafiəçidən imtina etməsi qəbul edilmir.

Müdafiəçidən imtina etdiyi andan şübhəli və ya təqsirləndirilən şəxs müstəqil olaraq öz müdafiəsini həyata keçirən şəxs hesab olunur. Müdafiəçidən imtina edən şəxs imtina qəbul olunduqdan sonra məhkəmə istintaqı başa çatana qədər cinayət prosesinin istənilən mərhələsində öz mövqeyini dəyişə bilər.

Təhqiqatçı, müstəntiq, prokuror və ya məhkəmə şübhəli və ya təqsirləndirilən şəxsə hər hansı bir konkret müdafiəçini dəvət etməyi təklif etməməlidir. Lakin onlar aşağıdakı hallarda müvafiq ərazinin vəkillik qurumundan öz vəkilləri arasından müdafiəçi təyin edilməsini xahiş etməlidirlər:

- əgər bunu şübhəli və ya təqsirləndirilən şəxs tələb edirsə;
- əgər prosesdə müdafiəçinin iştirakı məcburidirsə, lakin şübhəli və ya təqsirləndirilən şəxs müdafiəçiyə malik deyildirsə.

Təhqiqatçı, müstəntiq və ya prokuror aşağıdakı hallarda müvafiq ərazinin vəkillik qurumundan müdafiəçini digər bir vəkillə əvəz etməyi tələb edə bilər.

- müdafiəçi qismində seçilmiş vəkil şübhəli və ya təqsirləndirilən şəxsin müvafiq olaraq tutulduğu, yaxud həbsə alındığı andan altı saat müddətində həmin şəxslə görüşməyə gəlmədikdə;
- müdafiəçi uzun müddət ərzində (hər bir halda beş gündən artıq olmamaq şərti ilə) cinayət prosesində nəzərdə tutulmuş zəruri istintaq və ya digər prosessual hərəkətlərdə iştirak etmək üçün gəlmədikdə, cinayət prosesini həyata keçirən orqan isə bu hərəkətlərin aparılmasını artıq təxirə sala bilmədikdə.

Vəkilin cinayət prosesində müdafiəçi qismində iştirakına aşağıdakı hallarda xitam verilə bilər:

- müvafiq icraatda iştirak etmək üçün onun səlahiyyətləri olmadıqda;
- şübhəli və ya təqsirləndirilən şəxs ondan imtina etdikdə (onunla müqaviləni pozduqda);
- cinayət prosesini həyata keçirən orqan müdafiəçinin cinayət prosesində iştirakını istisna edən halları aşkar edib onu kənarlaşdırdıqda.

Cinayət prosesini həyata keçirən orqan şübhəli və ya təqsirləndirilən şəxsin müdafiəçidən imtina etməsini qəbul etmədikdə, müdafiəçinin cinayət prosesində iştirakına xitam verilmir.

İbtidai istintaqda müdafiəçinin iştirakı barədə bir neçə prosessual «mərhələlər» işləyib hazırlamışdır və bunlardan istifadə edən vəkil cinayət işinin zəncirini bütünlüklə aça və məhkəməyə işi düzgün həll etməkdə kömək edə bilər.

Ən əlverişli prinsipə yəqin ki, müdafiəçinin daha çox istifadə etdiyi təqsirsizlik prezumsiyasını aid etmək olar. Bu müddəanın nəzəriyyədə nə qədər «bayağı», «köhnəlmiş» görünmüş olmasına baxmayaraq

əminliklə demək olar ki, bu prinsipin praktiki imkanları demək olar ki, həqiqətən sayagəlməzdir. Səbəb son dərəcə sadədir: cinayət işlərində özünəməxsus kriminal situasiyalar (cinayətlər) təqdim olunur, onları törədən şəxslər fərqləndirilir. Dövlətin, qanunun istənilən şəxsə, o cümlədən kriminal əməldə təqsirləndirilən şəxsə münasibəti isə daimi olaraq qalmalıdır. Dövlətin öz vətəndaşına verdiyi qiymətin mahiyyəti onu nəzərdə tutur ki, o real faktlar əks halı sübut etməyənə qədər, onun təqsirliliyini, sosial-hüquqi «pisliyini» göstərməyənə qədər təmiz olaraq qalsın. Bu ən ümumiləşdirilmiş qaydada təqsirsizlik prezumpsiyası deməkdir. Vəkil bu prinsipi çox yaxşı , detallarla bilməlidir ki, istintaq gedişində əgər o qəbul edilmirsə, onu müdafiə etsin. Çünki, müdafiəçinin prosesdə iştirak etməyinin əsas və yeganə səbəbi «ittihamla barışmaz münaqişənin» olmasıdır.

Müdafiəçinin ibtidai istintaqda iştirak etməsi onun obyektivliyini artırır, təqsirə daxil edilmiş epizodları hərtərəfli qiymətləndirməyə, bəzən isə təqsirləndirilən şəxsin təqsirsiz olması barədə nəticəyə gəlməyə imkan verir.[4] Müdafiəçinin fəaliyyətini düzgün qiymətləndirən müstəntiq başa düşməlidir ki, «ibtidai istintaq və məhkəmə baxışının ilkin materiallarını analiz etməklə müdafiəçi təqsirləndirilən şəxsin təqsirsiz olması və ya ittihamda təqsirli olduğundan az təqsirli olması fikrini əsas tutur və tutmalıdır. İbtidai istintaqda iştirak edən hər bir müdafiəçinin əsas vəzifəsi bütün prosessual qaydalara əməl etməklə və onun müdafiə etdiyi şəxsə bəraət qazandıran və ya onun təqsirini yüngülləşdirən halları aşkar etməklə faktların müəyyən edilməsidir.

Lakin təəssüf ki, bu halda müdafiəçi heç də həmişə qanunla müəyyən edilmiş çərçivədə fəaliyyət göstərmir. Məsələn o, həbs altında olan təqsirləndirilən şəxslə onun məsuliyyətə cəlb olunmayan birgə iştirakçılar və ya vasitəçilər arasında özünəməxsus əlaqəçi ola bilər. Müstəntiq bunu da nəzərə almalıdır.

Müdafiəçinin fəaliyyətinin birtərəfliliyi həqiqətin müəyyən edilməsinin bir təminatıdır. Lakin unutmaq olmaz ki, müdafiəçi bu halda qanuna tabe olmalıdır və onun qanundan kənar hərəkətləri tamamilə yol verilməzdir.

Müdafiəçinin belə fəaliyyətinə qarşı mübarizənin əsas üsullarından biri onun CPM-in 222.4 maddəsinə uyğun olaraq ibtidai istintaq materiallarının yayılmasının yolverilməzliyi barədə xəbərdar edilməsidir.

Tanınmış hüquqşünas İ.D.Perlov yazır ki, «Ədalət mühakiməsi onda maraqlıdır ki, işin bütün halları həm ittiham, həm də müdafiə mövqeyindən eyni dərəcədə və hərtərəfli işıqlandırılsın və məhkəmədə ittihamı təsdiq edən və təqsirləndirilən şəxsin məsuliyyətini ağırlaşdıran hallarla yanaşı, təqsirləndirilən şəxsə bəraət verən, yaxud onun cəzasını yüngülləşdirən hallar da eyni dərəcədə təqdim olunsun. Buna ittiham və müdafiə, ittihamçı və müdafiəçi kömək edir».

Beləliklə, müdafiə hüququnun həyata keçirilməsi nəinki təkcə bizim ictimai quruluşun demokratik əsaslarının təzahürü, həm də düzgün ədalət mühakiməsinin həyata keçirilməsinin, qanunçuluq və hüquq qaydasına ciddi şəkildə əməl edilməsinin zəruri şərtlərindən biridir (5).

Hazırda AR CPM-in 92-ci maddəsinə uyğun olaraq müdafiəçi ittiham elan olunan andan, yaxud cinayətin törədilməsində şübhəli bilinən şəxs tutulduğu və ya ittiham elan olunana qədər həmin şəxsin barəsində həbsə alma qismində qətimkan tədbiri tətbiq olunduğu hallarda isə ona

tutma protokolu və ya müvafiq qətimkan tədbirinin tətbiq edilməsi barədə qərar elan olunduğu andan, lakin tutmanın həyata keçirilməsindən 24 saatdan gec olmayaraq işdə iştirak etməyə buraxılır.

İttiham elan olunana qədər cinayətin törədilməsində şübhəli bilinən şəxs qanunla müəyyən edilmiş hallarda (CPM-nin 150-ci maddəsi) saxlanıla bilər. İttihamın elan olunması üçün şübhəli şəxsin saxlanması 48 saatdan artıq davam edə bilməz.

Tutulmuş şəxs barəsində həbs qətimkan tədbirinin seçilməsi məsələsi həll olunarkən o, tutulduğu andan 48 saat keçənədək məhkəməyə gətirilməli, məhkəmə işə təxirə salmadan baxmalı və onun haqqında həbs qətimkan tədbirinin seçilməsi və ya onun azad edilməsi barədə qərar çıxarmalıdır. Şübhəli şəxsə münasibətdə qanunla yalnız müstəsna hallarda tətbiq olunması nəzərdə tutulan qətimkan tədbirlərinin tətbiq edildiyi hallarda on gün ərzində ona ittiham elan olunmalıdır. Əks halda qətimkan tədbiri ləğv edilir (CPM-nin 90.4 maddəsi).

Müdafiə hüququ geniş anlayış olub həm yuxarıda qeyd olunan şəxsi müdafiəni, həm də müdafiəçinin köməyi ilə həyata keçirilən müdafiəni əhatə edir. Qanun müdafiəçinin cinayət mühakimə icraatında iştirakını, onun hüquq və vəzifələrini ətraflı tənzim edir. CPM-in 92-ci maddəsində deyilir: «Müdafiəçi şübhəli və ya təqsirləndirilən şəxsə bəraət verən, onun məsuliyyətini yüngülləşdirən halları aydınlaşdırmaq məqsədilə qanunda göstərilən bütün üsul və vasitələrdən istifadə etməli, onlara zəruri hüquqi yardımı göstərməlidir». Beləliklə, müdafiəçidən müstəntiq və ya məhkəməyə işin bütün hallarının, yəni onun müdafiə etdiyi şəxsə qarşı olan halların müəyyən edilməsi məqsədilə kömək etməyi tələb etmək düzgün deyildir. Lakin müdafiəçi faktları saxtalaşdıra bilməz, o yalan danışmaq hüququna malik deyildir, ona müraciət etmiş şəxslərin müdafiəsini cinayətə bəraət verilməsinə çevirməməlidir (6).

Müdafiəçi müdafiə etdiyi şəxs özünü təqsirli saymırsa, onu təqsirli hesab etməməli və «şübhəli və ya təqsirləndirilən şəxsin müdafiəsindən imtina etməməlidir» (CPM-nin 92.10.3 maddəsi). A.Y.Suxarnev bu barədə çox inandırıcı yazmışdır: «Təqsirləndirilən şəxs nə qədər zidd mövqedə dayansa da, onun təqsirini sübut edən aşkar və həqiqi sübütlar olsa da, vəkilin əsas öhdəliyi sona qədər öz peşəkar vəzifəsini həyata keçirməkdən ibarətdir. Əgər ittiham olunan şəxs özünü təqsirli hesab etmirsə, müdafiəçi ittihamçıya çevrilərək əks mövqedə dayanmamalıdır».

Təcrübədə bəzən müdafiəçinin iştirak etdiyi istintaq hərəkətinin protokolunu imzalamaq öhdəliyi ilə bağlı mübahisə yaranır. Bizim fikrimizcə, müdafiəçi istintaq hərəkətində iştirak edən digər bütün şəxslər kimi protokolu imza etməyə borcludur, lakin o, istintaq hərəkətinin müşahidəçisi olmur, onun həyata keçirilməsində bilavasitə iştirak edir.

Çox vaxt istintaqın aparılması üsulu müdafiəçi və ya təqsirləndirilən şəxs tərəfindən vəsatətlərin verilməsini çətinləşdirir və ya verdikləri vəsatətin rədd edilməsindən şikayət vermələrinə mane olur. Əgər təqsirləndirilən şəxsin müdafiəçisi və ya zərərçəkənin, mülki iddiaçının, mülki cavabdehin nümayəndəsi təyin olunmuş vaxtda gəlib çıxa bidmədikdə, müstəntiq cinayət işinin materialları ilə tanış olma vaxtını 5 günə qədər başqa vaxta keçirə bilər (CPM-nin 284.3 maddəsi). CPM – in 287-ci maddəsinə görə cinayət prosesinin iştirakçısının xahişi ilə yazılı vəsatətin yazılması və verilməsi üçün 48 saata qədər vaxt verilə bilər.

Müdafiəçi şübhəli və ya təqsirləndirilən şəxsin müdafiəsinə aid olan

istənilən məsələ üzrə vəsatət verə bilər. Vəsatətin verilməsi cinayət prosesində ən geniş yayılmış müdafiə vasitələrindən biridir. Müdafiənin subyeкtləri bu vasitədən ibtidai istintaqda qüsurlar aşкar etdiкləri hallarda, cinayətin tövsifi və seçilmiş qətimкan tədbiri ilə razı olmadıqları hallarda iş üzrə və s. istifadə edirlər. İcrası çətin və ya mümкün olmamasına görə vəsatətin qəbul edilməsindən imtina edilə bilməz. Vəsatət rədd edildiкdə bu müstəntiq tərəfindən əsaslandırılmalıdır.

İstintaqda, xüsusən də ittihamın elan edildiyi andan müdafiəçinin aкtiv iştiraкı vətəndaşların hüquqlarının mühafizəsini, qanunçuluğun möhкəmləndirilməsini və ibtidai istintaqın кeyfiyyətinin yaxşılaşdırılmasını şərtləndirir.

Müdafiəçinin vəzifələri müstəntiqin vəzifələrindən fərqli olduğundan, o yalnız təqsirləndirən şəxsə bəraət verən, onun məsuliyyətini yüngülləşdirən və ya istisna edən hallara diqqət verir. Məhz buna görə də, müdafıəçi alacağı cavabların və ya materialların müdafiə etdiyi şəxs üçün əlverişli olacağına əmin deyildirsə, o, sübutların tələb edilməsi barədə vəsatətlərin və sualların verilməsindən yayınır.

İstintaqda iştiraк edən zaman müdafiəçi hadisə barədə və təqsirləndirilən və ya şübhəli şəxsin davranışı barədə öz mülahizəsini irəli sürür. Bu mülahizə müstəntiqin irəli sürdüyü mülahizədən fərqli olaraq iş materiallarının qiymətləndirilməsi üzərində qurula bilər. İbtidai istintaqda müdafiəçinin iştiraкı təqsirləndirilən şəxsə çox xeyirli ola bilər, laкin bu həm də müstəntiq üçün də xeyirli ola bilər. Bu halda müstəntiq bəzən buraxdığı səhvləri düzəltməк, işə əhəmiyyət vermədiyinə görə yan кeçdiyi hallara diqqət yetirməк imкanı qazanır.

İbtidai istintaqda müdafiəçinin iştiraкı təqsirləndirilən şəxsin sonradan onun qanuni maraqlarının pozulması, hüquqlarına əməl edilməməsini məhкəmədə iddia etməsinə mane olur.

İbtidai istintaqda müdafiəçinin iştiraкı istintaq məlumatlarının yayılmasının yolverilməzliyi problemi ilə sıx bağlıdır. Bu həm cinayətin effeкtiv olaraq üstünün açılması, həm də həqiqətə uyğun olmayan məlumatların yayılmasının istisna edilməsi üçün vacibdir. Əкs halda bu istintaq orbitində olan vətəndaşların maraqlarına əhəmiyyətli dərəcədə ziyan vura bilər.

Yeni cinayət prosessual normalar müdafiəçinin müdafiə etdiyi şəxsin dindirilməsində iştiraк etməк üçün müstəntiqin icazəsinin olmasını tələb etmir, bu istintaq hərəкətində onun imкanlarını genişləndirir кi, bu da müdafiəçini çox aкtiv bir fiqura çevirir.

Müdafiəçinin dindirmədə iştirak etmək hüququnun tam həyata keçirilməsini təmin etmək işin müstəntiqin tətbiq etdiyi tədbirlərə müdafiəçini dindirmənin vaxtı və yeri haqqında vaxtında məlumatlandırması, onun imkanlarını nəzərə almaqla vaxtı müəyyən etməsi daxildir.

Dindirmənin aparılmasını elə təşkil etmək lazımdır ki, dindirmə təyin olunduğu vaxtda başlasın və həddən artıq çox uzun sürməsin. Müstəntiq mütləq nəzərə almalıdır ki, müdafiəçinin öz planları vardır və hədər yerə vaxtın sərf olunması müdafiəçini əsəbiləşdirəcək, müstəntiqə yaxşı münasibəti olmayacaq və nəticədə münaqişəli situasiyalar yaranacaq. Tövsiyə etmək olar ki, dindirmədən əvvəl müdafiəçidən onun nə qədər vaxtı olması soruşulsun.

Dindirmənin taktikasını müəyyən edən müstəntiq unutmamalıdır ki, müdafiəçi də öz növbəsində davranış xəttini, müdafiə taktikasını işlə-

yib hazırlayır. Müstəntiqin və müdafiəçinin seçdiyi dindirmənin aparılması taktikası obyektiv olaraq bir birinə təsir edir. Buna görə də dindirməyə hazırlaşmaq, onun planını tərtib etmək, müstəntiqin aydınlaşdırmaq istədiyi hallarla bağlı suallar və bu sualların qoyulma ardıcıllığını müəyyən etmək çox vacibdir.

Aydındır ki, müstəntiq müdafiəçini özünün dindirmə planı ilə tanış etməyə borclu deyildir. Müdafiəçi də öz növbəsində plan hazırlaya bilər və onu müstəntiqə təqdim etməyə borclu deyildir. Bununla yanaşı o, müstəntiqdən dindirmə planını dəqiqləşdirməyi, əlavə olaraq bu və ya digər sübutun təqdim edilməsini, habelə dindirilən şəxsin vəziyyətini və şəxsi xüsusiyyətlərini nəzərə almaqla ona müəyyən xarakterli və ya tədqiq olunan cinayətlə əlaqəsi olmayan sualları verməməyi xahiş edə bilər. Cinayət-prosessual qanunvericiliyin müdafiəçinin müstəntiqlə qarşılıqlı münasibətlərinin bu hissəsini tənzimləmədiyinə baxmayaraq, bu münasibətləri hüquqauyğun, təqsirləndirilən şəxsin hüquq və qanuni maraqlarının müdafiəsinə yönələn, əlverişli istintaq atmosferasının yaradılmasını və müstəntiqə müsbət münasibət göstərilməsinin formalaşdırılmasını şərtləndirən münasibətlər kimi baxılmalıdır.

Müstəntiqlə müdafiəçinin bir yerdə dindirmə planını işləyib hazırlamaq qanunun pozulması demək deyildir və buna yol verilir. Bunu hərfi mənada şahidin təqdim edilməsi kimi başa düşmək lazım deyil. Bu halda söhbət dindirmənin, onun ayrı-ayrı hissələrinin mahiyyəti barədə məlumatlandırmadan gedir. Bu tövsiyə hər şeydən əvvəl, müstəntiqin müdafiəçi ilə çox yaxın işgüzar əlaqələrinin olduğu hallara aiddir.

Aydındır ki, müstəntiq əsaslandırmaqla müdafiəçinin təqsirləndirilən şəxsin istintaqda hüquqi mövqeyi ilə bağlı olan dəlillərini rədd edə bilər və bu da çox hallarda vəkilin və müstəntiqin maraqlarının toqquşmasına səbəb olur. Əgər müdafiəçi öz vəsatətlərində qanun çərçivəsindən kənara çıxmırsa, onun davranışı cinayət mühakimə icraatının vəzifələrinə cavab verirsə, belə halda müstəntiq onun fikrinə qulaq asmalıdır.

Təqsirləndirilən şəxsin hərəkətləri, onun cinayətin törədilməsində rolu, onun xarakteri haqqında müxtəlif mənbələrdən məlumat alan müdafiəçi müstəntiqə bu məlumatlara əsaslanan versiyasını təklif edə bilər. Bu da istisna deyil ki, müdafiəçi irəli sürdüyü versiyanın yoxlanması, işin ayrı-ayrı hallarının aydınlaşdırılması işin özünün variantlarını tövsiyə edə bilər.

Şübhəsiz ki, müstəntiq müdafiəçidən maksimum məlumat əldə etməkdə maraqlıdır. Bu məlumat iş üzrə müdafiənin mümkün versiyası haqqında və ya onun ayrı-ayrı elementləri haqqında fikrin formalaşmasına əsas verə bilər. Versiyanın təqsirləndirilən şəxs və ya onun müdafiəçisi tərəfindən elan olunana qədər müstəntiq tərəfindən yoxlanılması müstəntiqə taktiki üstünlüklər verir.

Qeyd etməк lazımdır кi, dindirmə gedişində istintaq və müdafiə ümumi əxlaqi dəyərlərə hörmət edilməsi əsasında qurulmalıdır. Bununla yanaşı, müdafiəçinin iştiraкı ilə təqsirləndirilən şəxsin dindirilməsinin taкtiкi üsullarının seçilməsi zamanı bəzən müdafiəçidə ola biləcəк vicdansızlığı, onun işin hallarını təqsirləndirilən şəxsin xeyrinə təhrif olunmasına cəhd etməsini də nəzərə almaq lazımdır. Bizim fiкrimizcə, birinci olaraq sual verməк hüququ müstəntiqdədir, belə кi, istintaq hərəкətinin rəhbəri olmaqla dindirməni o aparır, müdafiəçi isə yalnız iştiraкçıdır.

Bəzən bedə hallar yaranır кi, dindirilən şəxs bir və eyni faкtın

aşkar edilməsi zamanı müdafiəçi və müstəntiqin verdiyi sualların qoyuluşuna yaxın olan müxtəlif cavablar verir. Bəzi müstəntiqlər belə hesab edirlər ki, bu halda müdafiəçinin sualının protokolda qeyd edilməsi məcburidir. Belə bir fikirlə razılaşmaq olmaz.

Müdafiəçi müstəntiqə dindirmənin dayandırılması və ona təqsirləndirilən şəxslə görüş verilməsi barədə vəsatətlə müraciət edə bilər. Bu məsələ qanunvericiliklə tənzim olunmamışdır. Belə hesab edirik ki, belə bir vəsatətin təmin edilməsi qanuna zidd deyil və taktiki baxımdan düzgün ola bilər. Belə ki, o, yaranmış gərginliyi aradan qaldıra və münaqişənin dərinləşməsinə yol verməyə bilər. Əks halda təqsirləndirilən şəxs ümumiyyətlə ifadə verməkdən imtina edər və nəticədə müstəntiq dindirməni dayandırmağa məcbur olar (7).

Əgər müstəntiqdə belə bir məlumat varsa ki, müdafiəçi təqsirləndirilən şəxsə təsir edir, müdafiə etdiyi şəxslə qeyri-məhdud görüş imkanlarından vicdansız istifadə edir, onda burada söhbət taktiki üsullardan istifadə olunmasından yox, müstəntiqin sərt mövqeyindən və belə müdafiəçiyə münasibətdə intizam tədbirlərini tətbiq etməsindən gedir. O, müdafiəçiyə öz peşə borcunu pozduğunu bildirməlidir və zəruri olan hallarda vəkillər kollegiyasının Rəyasət Heyətinə təqdimat göndərməlidir.

Əgər təqsirləndirilən şəxsin yazılı ifadələri ilə tanış olan müdafiəçi görsə ki, müdafiə üçün zəruri olan məlumatlar protokola düşməyib, onda o, müdafiə etdiyi şəxsin diqqətini buna yönəltməli və ondan şifahi ifadə verdiyi zaman toxunduğu lakin öz əli ilə yazdığı ifadələrində göstərmədiyi məlumatlarla protokolu tamamlamağı xahiş edə bilər.

Mahiyyətinə görə üzləşdirmə dindirmənin bir növüdür, buna görə də bu istintaq hərəkətlərinin aparılma taktikasında oxşar cəhətlər çoxdur. Dindirmənin həyata keçirilməsində olduğu kimi, məqsədi yalan ifadələrin ifşa edilməsindən ibarət olan üzləşdirmənin aparılması zamanı da eyni taktiki üsullardan istifadə olunur. Lakin üzləşdirmədə dindirməyə nisbətən daha çox şəxs iştirak etdiyinə görə onun bir sıra özünəməxsus xüsusiyyətləri vardır. Əsas xüsusiyyətlərdən biri isə, bu istintaq hərəkətinin aparılması üçün əsas olan işin materiallarının ziddiyyətli xarakterdə olmasıdır.

Belə ki, qanunun özündə (CPM-nin 235-ci maddəsi) göstərilir ki, «üzləşdirmə əvvəllər dindirilmiş və ifadələrində ziddiyyətlər olan iki şəxs arasında aparılır». Üzləşdirmədə ziddiyyətlər bilə – bilə yalan ifadə vermə və ya vicdanlı yanılmadan irəli gələ bilər.

Təqsirləndirilən şəxsi ifşa edən şəxslər tərəfindən bilə-bilə yalan ifadə vermələri və ya vicdanlı yanılmaları zamanı müdafiəçinin iştirakı pis niyyətli mövqenin aydınlaşdırılması və dəlillərin zəifliyinin müəyyən edilməsi üçün çox xeyirli ola bilər. Bu o hallardır ki, bu zaman istintaq və müdafiənin maraqları subyektiv olaraq üst-üstə düşür. Bu halda müstəntiq üzləşdirmənin taktikasının işlənib hazırlanması üçün müdafiəçini işə cəlb etməli; sualları fikirləşməli və hazırlamalı, onların həcmini və ardıcıllığını müəyyən etməlidir. Müzakirə zamanı verilməsi nəzərdə tutulan suallar elə seçilməlidir ki, vicdanlı olaraq yanılan şəxsdə assosiativ əlaqələr aktivləşdirilsin. Buna isə təkcə ifadələrin aid olduğu halların deyil, həm də onlarla qarışıq olan, hadisələri qabaqlayan və ya hadisələrin ardınca gələn halların aydınlaşdırılması kömək edəcək.

Yalnız belə bir mühüm sual yaranır. AR CPM-in 92-ci maddəsi maraqları arasında ziddiyyətlər olan və onlardan birinin məhkəmə

baxışında müdafiəçisi olduğu işlər üzrə müdafiəçinin məcburi olaraq iştiraк etməsini tələb edir. Təcrübə onu göstərir кi, bu cür ziddiyyətlər bütün ibtidai istintaq boyu yaranır və davam edir.

Müstəntiqin fiкrinə görə düzgün ifadə vermiş şəxsdən başlayaraq üzləşdirmənin aparılması, yanlış ifadə verməyə cəhd etdikdə onu qandırmaq, digər hərəkətlərlə onu qorxutmaq taкtiкi cəhətdən düzgündür. Belə hesab edirik ki, təqsirləndirilən şəxslər ifadə verdikdən və bir-birlərinin suallarına cavab verdikdən sonra müdafiəçiyə suallar vermək imkanı verilməsi məqsədəmüvafiqdir.

Müdafiəçi ibtidai istintaqda ittiham irəli sürüldüyü andan meydana çıxır. Təəssüf ki, təcrübə onu göstərir ki, təqsirləndirilən şəxs qismində cəlb etmə barədə qərar bəzən kifayət qədər əsaslandırılmır, onda cinayətin törədilmə halları verilmir, təsnifləşdirici əlamətlər göstərilmir. Aydındır ki, təqsirləndirilən şəxs ümumi ifadələrlə tərtib edilmiş ittihamdan effektiv müdafiə oluna bilməyəcək. Əgər ittihamın əsasından təqsirləndirilən şəxsin xəbəri yoxdursa, o, irəli sürülmüş ittihamın mahiyyəti üzrə hansı izahatları verə bilər?

Belə şəraitdə təqsirləndirilən şəxs özünü müdafiə etmək üçün əsaslı izahatlar irəli sürür. Məhz bu səbəbdən vəsatətlərin çoxu ibtidai istintaq başa çatdıqda və işin materialları ilə tanış olunduqdan sonra irəli sürülür.

İşin müəyyən edilmiş hallarına açıqcasına uyğun gəlməyən ittihamın irəli sürülməsi zamanı cinayətlərin “artırılmış” tövsifi təqsirləndirilən şəxsin müdafiə hüququnu pozur, digər konstitusion hüquqların pozulması üçün şərait yaradır (8). Qanun müstəntiqdən tələb edir ki, təqsirləndirilən şəxsə elan edilmiş ittihamın izah etməsini tələb edir (CPM-nin 224.2 maddəsi). Lakin bu müdafiəçinin nəinki ittihamın, hətta onun nəticələrinin mahiyyəti üzərində hərtərəfli dayanmaq hüququnu istisna etmir və əgər müdafiəçi ittihamın irəli sürülməsi haqqında qərarın elan edilməsi və dindirmə gedişində bu cür təhlillər aparırsa müstəntiq buna mane olmamalıdır. Müdafiəçi təqsirləndirilən şəxs tərəfindən ittihamın elan olunması haqqında qərarı imzaladığı və bununla əlaqədar olaraq dindirildiyi ana qədər təklikdə gərarın aparılmasını tələb etməklə bunu edə bilər.

Müstəntiqin ittiham elan olunduğu andan dərhal sonra təqsirləndirilən şəxsin dindirilməsi barədə qanunun tələbinin (CPM maddə 223) dərhal icrasına istinad etməsi qəti olaraq düzgün hesab oluna bilməz, belə ki, təqsirləndirilən şəxs ittihamın mahiyyətini tam anlayana qədər ifadə verməkdən imtina etmək hüququna malikdir. Bunun üçün o, müdafiəçi ilə ona təklikdə qərar verilməsini tələb edə bilər. Müdafiəçi belə qərarın verilməsini təkid edə bilər. Beləliklə, təqsirləndirilən şəxsdən ona ittiham elan olunduqdan sonra ifadələrin alınması üçün müstəntiq bu vəsatəti təmin etməyə məcburdur və yalnız təqsirləndirilən şəxs öz müdafiəçisi ilə görüşdükdən sonra hərtərəfli dindirməni həyata keçirə bilər.

CPM-in 223-cü maddəsinə uyğun olaraq şəxsin təqsirləndirilən şəxs qismində cəlb edilməsi haqqında qərar onun cinayətin törədilməsində iştirakını sübut edən kifayət qədər dəlillər toplandıqdan dərhal sonra çıxarılmalıdır. Işdə təqsirləndirilən şəxsin meydana çıxması ilə istintaq daha konkret və məqsədyönlü xarakter əldə edir. Təqsirləndirilən şəxsin müdafiəsi üçün bütün qanuni vasitələrdən istifadə etmək imkanları yaranır.

Müstəntiq (məsələn, təqsirləndirilən şəxsin təqsirini yüngülləşdirən və ya ittihamın bəzi hissələrini rədd edən hallar ona məlum olduqda) irəli sürülmüş ittihamnamənin dəyişdirilməsi və ya yenidən tərtib olunmasına hazır olmalıdır. Müstəntiq cinayət işinin hansısa hissəsinin xitam olunması və ilkin ittiham aktının dəyişdirilməsinə dair müdafiəçi tərəfindən irəli sürüləcək vəsatətlərin mümkünlüyünü nəzərdə saxlamalıdır. Bunu nəzərə alaraq adı çəkilən məlumatlar müstəntiqə məlum olduqda, o, müdafiəçinin vəsatətini gözləmədən yeni ittiham irəli sürməlidir (9).

Hadisə yerinin ilkin müayinəsində şübhəli və ya təqsirləndirilən şəxs çox nadir hallarda iştirak edir, belə ki, bir çox hallarda onlar prosessual plana hələ daxil edilmirlər. Bununla əlaqadar olaraq müdafiəçi də çox nadir hallarda ilkin müayinədə iştirak edir, lakin hadisə yerinin və əşya sübutlarının təkrar müayinəsində göstərilən şəxslərin və müdafiəçinin iştirakı arzuolunandır. Müayinədə şübhəli şəxsin və təqsirləndirilən şəxsin iştirakı iş üçün əhəmiyyət kəsb edən əlavə halların aydınlaşdırılması işin, onların verdikləri ifadələrin və onların faktiki şəraitə və hallara uyğunluğunun dəqiqləşdirilməsi və yoxlanması üçün imkanlar yaradır.

Hadisə yerinin daha tam və dəqiq əks olunması, hadisənin maddi izlərinin aşkar edilməsi və onun mexanizminin izah edilməsi məqsədilə təqsirləndirilən şəxs, şübhəli şəxs və müdafiəçi hadisə yerinin müayinəsində iştirak etməyə cəlb edilir. Hadisənin törədilməsi faktını etiraf edən təqsirləndirilən şəxs hadisə yerini dəqiq göstərə bilər, onun necə baş verdiyini, kimin harda olduğunu və nə etdiyini danışa bilər, hadisənin izlərinin və digər əşya sübutlarının harda olması barədə məlumat verə bilər. Müayinədə müdafiəçinin iştirakı onun həyata keçirilməsinin bütün prosessual qaydalarına əməl edilməsinə şərait yaradır, bəzən yol verilən prosessual "sadəliyi" aradan qaldırır (10).

Zəruri olan hallarda müdafiəçi müayinədə mütəxəssisin iştirak etmək üçün dəvət olunması barədə vəsatət verə bilər və onun fikrinə görə müəyyən predmetlərin götürülməsi və rəsmiləşdirilməsinin köhnəlmiş texniki vasitələrdən yox, yeni müasir texniki vasitələrdən istifadə olunmaqla mümkün olması, müdafiə etdiyi şəxsin təqsirsizliyinin və ya təqsirinin az olmasının müəyyən edilməsi üçün faydalı olacaq.

Müdafiəçi müayinə protokolunun məzmunu ilə bağlı iradlarını verə, onun tamamlanması barədə xahiş edə bilər.

Cinayət işlərində müdafiə – bu çox ciddi problemdir. Onu bütün mümkün aspektlərdən – sosial-hüquqi, kriminoloji, cinayət-prosessual, kriminalistik, psixoloji və s. aspektərdən öyrənmək lazımdır.

Yalnız bu yolla onun praktiki həllinin ciddi elmi-təcrübi müddəalarını yaratmaq olar.

## ƏDƏBİYYAT


1. Закон Азербайджанской Республики об «Адвокатах и адвокатской деятельности» от 28 декабря 1999 г.
2. Барщевский Ю.М. Адвокат, адвокатская фирма, адвокатура. М., 1995, с.84.
3. Ларин А.М. Расследование по уголовному: процессуальные функции. М., 1986, с.10
4. Лубшев Ю.Ф. Адвокат в уголовном деле / Под.ред. И.Б.Мартковича. М., 1997, с.210.
5. Адаменко В.Д. Сущность и предмет защиты обвиняемого. Томск, 1983, с. 116.
6. Барщевский М.Ю. Адвокат, адвокатская фирма, адвокатура. М., 1995, с.52.
7. Бойков А.Д. Этика профессиональной защиты по уголовным делам. М., 1978, с. 60-61.
8. Защита по уголовному делу: Пособие для адвокатов/Под.ред. Е.Ю.Львовой. М., 1999,

с.139-142.
9. Макарова З.В. Участие адвоката на предварительном следствии. Куйбышев, 1978, с.96-97.
10. Петрухин И.Л. Вам нужен адвокат. М., 1993, с.95.

## НЕКОТОРЫЕ ПРОБЛЕМЫ ПРОЦЕССУАЛЬНОЙ ДЕЯТЕЛЬНОСТИ ЗАЩИТНИКА НА ПРЕДВАРИТЕЛЬНОМ СЛЕДСТВИИ

**С.В.САДЫГОВА**

**РЕЗЮМЕ**

Статья посвящена некоторым проблемам процессуальной деятельности защитника на предварительном следствии по законодательству Азербайджанской Республики. Научное и практическое значение рассмотрения этих проблем позволяет правильно понять связь категорий защиты, обвинения, права, в частности уголовно-процессуального. Однако более целесообразным является допуск адвоката к уголовным делам с начала ведения предварительного следствия. Привлечение адвоката к делу с самого начала помогает обычному гражданину в исследовании обстоятельств, участником которых он становится по инициативе правоохранительных органов, содействует критической оценке принимаемых следователем решений, предотвращает обвинительный уклон начала следствия. В статье рассматриваются некоторые спорные и дискуссионные вопросы участия защиты на предварительном следствии.